***Sevinc Ağarəhim qızı Rəhimova***
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Bakı Qızlar Universiteti*

# MÜXTƏLİF OBRAZLARIN (ƏŞYALARIN, HADİSƏLƏRİN) TUTUŞDURULMASININ ŞİFAHİ NİTQİN İNKİŞAFINA TƏSİRİ

***Севиндж Агарагим гызы Рагимова***
*доктор философии по педагогике*
*Бакинский Университет для Девушек*

# ВЛИЯНИЕ СОЧЕТАНИЯ РАЗНЫХ ОБРАЗОВ (ПРЕДМЕТОВ, СОБЫТИЙ) НА РАЗВИТИЕ УСТНОЙ РЕЧИ

***Sevinj Agahahim Ragimova***
*doctor of philosophy in pedagogy*
*Baku University for Girls*

# INFLUENCE OF THE COMBINATION OF DIFFERENT IMAGES (OBJECTS, EVENTS) ON THE DEVELOPMENT OF ORAL SPEECH

**Xülasə.** Məqalədə şifahi nitqin inkişafına müxtəlif obrazların (əşya və hadisələrin) təsiri nəzərdən keçirilir. Təcrübə göstərir ki, tutuşdurmanın müvəffəqiyyətli həlli və onun seçilməsi başlıca şərtdir. Burada əsas məqsəd seçilən obyektlərin oxşarlıq əlamətləri, bənzərliyi və onların dəqiq müəyyənləşdirilməsidir. Tutuşdurmada şagirdlərin diqqəti müvafiq olaraq yalnız oxşar, bənzər əlamətlərin axtarılmasına, sözlərlə adlandırılmasına və kontekst daxilində işlədilməsinə yönəldilir. Bunun böyük didaktik əhəmiyyətini nəzərə alaraq, qabaqcıl müəllimlər tutuşdurmanın müxtəlif növlərindən istifadə edirlər. Onu da qeyd edək ki, tutuşdurmanın müxtəlifliyi şagirdlərin müstəqillik dərəcəsindən çox asılıdır.
***Açar sözlər:*** *əşya, obraz, nitq, inkişaf, hadisə, şifahi, təcrübə, sinif, pedaqoji*

**Резюме.** В статье рассматривается влияние сочетания разных образов (предметов, событий) на развитие устной речи. Подчеркивая, что примирение является одним из типов сравнений, подчеркивается, что его успешное разрешение и выбор является необходимым условием. Различные виды противостояния показывают основные особенности определения степени самостоятельности студентов. Дискуссии ведущих ученых на эту тему основаны на результатах экспериментов, проведенных в разных школах нашей республики, для выявления состояния устной речи юных школьников по сравнительному принципу.
***Ключевые слова:*** *вещь, образ, речь, развитие, событие, устный, опыт, класс, педагогический*

**Summary.** The article touches on the impact of the combination of different images (objects, events) on the development of oral speech. Discussions by prominent scholars on the subject are based on the results of experiments conducted in different schools of our republic to reveal the state of the oral speech of young schoolchildren under the comparative principle. Emphasizing that reconciliation is one of the types of comparisons, it is emphasized that its successful resolution and selection is a prerequisite. Different types of confrontation show the main features of determining the degree of independence of students.
***Key words:*** *thing, image, speech, development, event, oral, experience, class, pedagogical*

Tutuşdurma müqayisənin növlərindən biridir. O, həm məntiqi quruluşuna, həm də didaktik funksiyasına görə qarşılaşdırmadan fərqlənir. Burada başlıca məqsəd oxu materiallarının tədrisi prosesində eyni cinsli və yaxud müxtəlif cinsli obyektdə (əşyada, hadisədə, obrazda və s.) oxşarlıq, bənzərlik əlamətləri axtarıb tapmaqdan və bu əsasda şagirdlərin şifahi nitqini inkişaf etdirməkdən ibarətdir.

Təcrübə göstərir ki, tutuşdurmanın müvəffəqiyyətli həlli və onun seçilməsi başlıca şərtdir. Burada əsas məqsəd seçilən obyektlərin oxşarlıq

əlamətləri, bənzərliyi və onların dəqiq müəyyənləşdirilməsidir. Tutuşdurmada şagirdlərin diqqəti müvafiq olaraq yalnız oxşar, bənzər əlamətlərin axtarılmasına, sözlərlə adlandırılmasına və kontekst daxilində işlədilməsinə yönəldilir. Bunun böyük didaktik əhəmiyyətini nəzərə alaraq, qabaqcıl müəllimlər tutuşdurmanın müxtəlif növlərindən istifadə edirlər. Onu da qeyd edək ki, tutuşdurmanın müxtəlifliyi şagirdlərin müstəqillik dərəcəsindən çox asılıdır.

Birincisi, obyektləri tutuşdurmaq üçün müəllim suallar qoyur. Suala özü cavab verir, həmin obyektləri özü müəyyənləşdirir, şagirdlər passivlik göstərir, müəllimin mühakiməsini izləyir. İkincisi, obyektlərin tutuşdurulması üzərində şagirdlərin işini təşkil edir. Ona (işə) istiqamət verir, onlar (şagirdlər) fəallıq göstərirlər. Tutuşdurma zamanı obyektlərə müxtəlif mövqedən yanaşıla bilər. Birinci halda, oxu materiallarının məzmununda əks olunan obyektləri müəllim şagirdlərə xatırladır və yadlarına salır. Şagirdlər isə onları fikrən yanaşdırır, tutuşdurulan obyektləri eyni vaxtda şüurunun nəzarəti altına alır, müşahidə edir, hər ikisinin bu və ya digər cəhətlərində oxşarlıq, bənzərlik axtarırlar. Nəticə etibari ilə oxşar əlamətlər, bənzər cizgilər, dəqiq sözlər seçilir. Tədricən onlardakı (tutuşdurulan əşyalardakı) ümumi cəhətlər müəyyən məfhumlara aid edilir. Beləliklə də, təlimin ilk günündən şagirdlər səpəli, pərakəndə faktlardan sadə ümumiləşdirmə, elementar inteqrasiya aparma bacarıqları formalaşmağa doğru inkişaf edir. Gərgin axtarış və müqayisə əsasında şagirdlər tutuşdurulan təsvir obyektlərinin həm daxili, həm də xarici əlamətlərini üzə çıxarırlar. Bu əlamətlər (faktlar, cəhətlər və s.) müqayisə vasitəsi ilə dillə ifadə edilir.

Beləliklə, ibtidai sinif şagirdlərinin təfəkkürü və nitqi formalaşmağa başlayır. Məktəbəqədərki dövrdə uşaq yanaşı qoyulan ayrı-ayrı obyektlər arasındakı oxşarlığı çox zaman görmür, bəzən görsə də, hiss etmədən, onun fərqinə varmırlar. Bunun nəticəsidir ki, ilk təlim ilinin əvvəllərində şagirdlər əşyaları tutuşdurmağı, sadə, elementar ümumiləşdirmələr aparmağı bacarmırlar. Lakin şagirdlər bu sahədə müəyyən məşqlər keçdikdən, obyektlər arasındakı oxşarlıqları müəyyənləşdirmək üzrə bilik və bacarıqlara yiyələndikdən sonra onlar (şagirdlər) müstəqil müqayisələrə girişir və gərgin təfəkkür şəraiti tələb edən bu işin öhdəsindən müvəffəqiyyətlə gələ bilirlər.

Deməli, burada başlıca məqsəd nəyi (hansı məzmunu) nə vaxt (hansı yaşda) öyrətmək deyil, nəyi (məzmunu) hansı istiqamətdə (nəzəri, yaxud praktik) və necə (hansı mükəmməl metodik sistemlə) öyrətməkdən ibarətdir.

Görkəmli psixoloqlardan D.B.Elkonin, V.V.Davıdov, L.M.Aydarova və başqalarının tədqiqatlarında bu günkü kiçik yaşlı məktəblilərin ümumi (fiziki və intellektual) hazırlığının, idraki imkanlarının daha geniş imkanlara malik olduğu göstərilir. Hələ savad təlimi dövründə müəllim uşaqlara müxtəlif əşyalar, rəngarəng əşya şəkilləri təqdim edir. Onların xarakterik əlamətlərini müsahibənin köməyi ilə şagirdlərin gözləri qarşısında canlandırır, əşyaların xüsusiyyətlərini (böyük və kiçikliyini, rəngini, dadını, bərk və boşluğunu və s.) xəbər alır, onlar əsasında cümlələr qururlar. Bəzən də əşyanı (ağacı, binanı, quşu, heyvanı və s.) təsvir etdirirlər. Bildikləri hekayələrin, nağılların məzmununu danışdırır, şerləri əzbərdən oxutdururlar. Doğrudur, bütün bunlar şagirdlərin nitqinin, təfəkkürünün inkişafına müəyyən material verir. Lakin bunlar hələ tam müstəqil təfəkkürün, konkret müşahidələrin məhsulu ola bilmir.

Kiçikyaşlı məktəblilər ayrı-ayrı əşyaları sadə şəkildə də olsa, təsvir etsələr də, hadisələrin, öyrəndiklərinin məzmununu məntiqi ardıcıllıqla versələr də, gündəlik qarşılaşdıqları obyektləri tutuşdurmaqda çətinlik çəkirlər. Məsələn, kənd məktəblərinin I-IV sinif şagirdləri atla inəyi çox görmüş, onların necə hərəkət etmələrini, balalarını yalamalarını, yemlənmələrini, başqa sözlə, bütün həyat tərzlərini müşahidə etmiş, onlar haqqında geniş təsəvvürlərə yiyələnmişlər. Həmin heyvanların oxşar əlamətlərinin göstərilməsi tələb olunduqda şagirdlər kifayətləndirici fikir söyləyə bilmirlər, yaxud Bakı məktəbliləri tramvay və trolleybusu çox görmüş, onlardan nəqliyyat vasitəsi kimi istifadə etmişlər. Lakin bu nəqliyyat vasitələrinin oxşar cəhətlərini ayırmağı bacarmırlar. Bu hər şeydən əvvəl məktəbəqədərki dövrdə uşaqlara ayrı-ayrı obyektlər (əşyalar, hadisələr və s.) arasındakı oxşar əlamətlərin müəyyənləşdirilməsi üzrə sadə bacarıqların verilməməsi ilə bağlıdır. Bunun nəticəsidir ki, kənd məktəbliləri at ilə inəyi tutuşdurarkən "Atın, inəyin qıçları var", "At və

inəyin quyruğu var", "At və inəyin başı var", "At və inəyin gözləri var və s.". Şəhər məktəbliləri isə "Tramvay və trolleybus elektriklə işləyir". "Tramvay və trolleybus adamları işə, bazara aparır", "Tramvay və trolleybus dayanacaqlarda dayanır", "Tramvay dəmir yolu ilə gedir" və s. kimi rabitəsiz cümlələr qururlar.

Göründüyü kimi, əvvəla, bu cümlələr konkret, məqsədli müşahidələrin deyil, əvvəlki biliklərinin məhsuludur. İkincisi, necə gəldi qurulan cümlələr arasında heç bir məntiqi əlaqə yoxdur. Üçüncüsü isə göstərilənlərin hər biri at və inək, tramvay və trolleybus barədə biliklərinin ayrı-ayrı hissələridir.

Müqayisə priyomu əsasında kiçikyaşlı məktəblilərin şifahi nitqinin vəziyyətini aşkara çıxarmaq məqsədi ilə Bakı şəhərindəki 12, 18, 132, Əli Bayramlı şəhərindəki 11 saylı, Abşeron rayonu Saray kəndindəki və Ucar rayonu Boyat kəndindəki orta məktəblərin hər birinin iki bir, iki iki, iki üç, iki dördüncü siniflərində müəyyənedici eksperiment qoyuldu. Hər sinifdən üç qüvvəli, üç orta səviyyəli və üç aşağı səviyyəli şagird (hər sinifdə 90 nəfər olmaqla cəmi 360 nəfər) fərdi cavab verdi.

Eksperiment materialı kimi I sinifdə şəkil üzrə "Pələng və pişiyin oxşar əlamətləri haqqında danışın", "Ceyran və keçinin oxşar cəhətlərini deyin", "Pələnglə pişiyin oxşar cəhətlərini deyin", II sinifdə "Ağılsız şah və tamahkar vəzir" nağılında şahla vəzirin oxşar cəhətlərini nağıl edin". "İlk dəfə şəhərdə" hekayəsində "Tükəzlə Aynurun oxşar xüsusiyyətlərini danışın", "Təyyarə ilə vertolyotun oxşar cəhətlərini nağıl edin", III sinifdə "Vəhşi heyvanlarla vəhşi quşların oxşar cəhətlərini danışın". "Tərəvəzlə bostanın" oxşar cəhətlərini danışın. IV sinifdə Q.İlkinin "Yaxşı yoldaş" hekayəsində "Cavad və Ramiz obrazlarının oxşar əlamətlərini danışın. İ.Əfəndiyevin "Qoçaq uşaqlar" mətnində "Cəfər və Nadir obrazlarındakı oxşar cəhətləri nağıl edin" tapşırıqları təqdim olundu. Şəkillərin və mətnlərin məzmunu əvvəlcədən şagirdlərə çatdırıldı. Məzmun tam mənimsədildikdən sonra göstərilən mövzularda inşa qurmaq tələb edildi. Şagirdlərin nağılı (danışığı) dərsdə, tənəffüsdə, dərsdən sonra, kollektiv və fərdi yolla maqnitofon lentinə yazıldı. Şagirdlərin nitqi müstəqillik, əhatəlilik, sistemlilik və ümumiləşdiricilik baxımından təhlil edildi.

İstər şəhər, istərsə də kənd məktəblərində təhsil alan qüvvəli şagirdlər şəkillərin, oxu materialının məzmununu ümumi şəkildə ifadə etdilər. Onların nitqlərində bəzi ümumi cəhətlər nəzərə alınmazsa, tutuşdurmalara, oxşar əlamətlərin meydana çıxarılmasına əsasən yer verilməmişdir. Tutuşdurulan əşya şəkillərinin mahiyyəti, obrazların xarakteri açılmamışdır.

Eksperiment göstərdi ki, qurulan inşalarda təkrarlar, bir-biri ilə məntiqi əlaqəyə girməyən cümlələr, cümlələrdə müəyyən hissələrin, faktların sadalanması, cümlədə bəzən sözlərin sırasının pozulması, cümlələrdə mübtəda və xəbərin şəxsə və kəmiyyətə görə uzlaşması və s. nöqsanlara yol verilmişdir.

Şagirdlərin müşahidə qabiliyyətinin, diqqətinin zəifliyinin, lüğət ehtiyatlarının kasıblığının, cümlə qurma bacarıqlarının, rabitəli nitqlərinin lazımınca inkişaf etməməsinin nəticəsidir ki, onlar tutuşdurulan obyektlərin, obrazların oxşar əlamətlərini müəyyənləşdirməyi, sistemləşdirməyi və ümumiləşdirməyi bacarmırlar.

Şəkillər əsasında əşyaların tutuşdurulmasına həsr olunan inşalar göstərdi ki, şagirdlər bəzən konkret müşahidələrindən daha çox özlərinin əvvəlki biliklərindən çıxış edirlər. Bu da nəticə etibarı ilə inşalarda heç danışılması lazım gəlməyən məsələlər üzərində uzun-uzadı dayanılmasına, artıq fikirlər söylənməsinə gətirib çıxarır.

İbtidai siniflərdə müxtəlif əşyaların tutuşdurulması prosesində müsahibə aparılarkən bəzən müəyyən sistem gözlənilmir, əşyaların hansı hissələrindən başlanması, nələrin əhatə olunması və nələrlə yekunlaşdırılması məsələlərinə diqqət yetirilmir. Birinin cavabı çox zaman başqalarına təkrarladılır. Dərsdə əksər hallarda yerliyersiz izahatlar aparılır. Belə olduqda şagirdlər müəllimin təsiri altına düşür, onların müstəqilliyi, sərbəstliyi əllərindən alınır. Şagirdlər eyni məsələlər, hissələr üzərində dayanır, suallara müəllimdən, yoldaşlarından eşitdikləri, öyrəndikləri cavabları verirlər. Bununla da dərsdəki müstəqillik, sərbəstlik minimum səviyyəyə enir. Belə dərsin səmərəsi çox-çox aşağı olur. Təcrübə göstərir ki, tutuşdurma əsasında kiçikyaşlı məktəblilərin şifahi nitqinin inkişafı sahəsində iş apararkən bəzi dəyişikliklər aparmaq mümkündür.

Təcrübə göstərdi ki, I-II sinifdə təlim ilinin əvvəllərində şagirdlərə yalnız belə oxşar əşyaların, onların təsvir olunmuş şəkillərinin təq-

dim olunması və bu əsasda onların ümumi cəhətlərinin müəyyənləşdirilərək meydana çıxarılması mümkündür və o, şagirdlərin nitqinin inkişafına müsbət təsir edir. Ona görə də I-II siniflərdə tutuşdurmaya imkan verən bənzər əşya şəkilləri (it-canavar, təyyarə-vertolyot və s.) əsasında şifahi müqayisə xarakterli inşalar qurdurulması zəruridir.

I-II siniflərdə sadə, hekayə, nağıl, təmsil və s. təsvir olunan iki oxşar obrazın bənzər əlamətlərinin müəyyənləşdirilməsi və bu haqdakı fikirlərini rabitəli nağıl etmələri nitq və təfəkkürün inkişafı baxımından əhəmiyyətlidir.

Təcrübi təlimin nəticələri göstərdi ki, III sinifdə oxşar obrazlardan hərəsinin bir şagirdə təsvir etdirilməsi, sonra sinifdə onlar arasındakı bənzərlik əlamətlərinin tapdırılması və bu əsasda şifahi inşaların qurdurulması şagirdlərin müşahidə qabiliyyətini itiləşdirməklə şifahi nitqinin inkişafına da müsbət təsir göstərir.

Bu məsələ həmin məktəblərin beş IVa sinfində 146 şagirdlə yenidən sınaqdan keçirildi. Bu zaman şagirdlərə S.Vəliyevin "Bir səhəng su" hekayəsi oxutduruldu. Sonra müəllimin tələbi ilə şagirdlərdən biri Mustafanın, ikincisi isə Züleyxanın obrazı haqqında danışdı. Bundan sonra şagirdlərə Mustafa və Züleyxanın həyatı, hərəkətləri və xarakterlərindəki oxşar cəhətləri müəyyənləşdirməyə təhrik edən suallar verildi: Mustafa və Züleyxa kim idi? Onların valideynləri harada idi? Onların bir-birinə münasibəti haqqında nə deyə bilərsiniz? Oğlan bacısına su gətirmək üçün necə hərəkət etdi və s. suallar şagirdləri hekayənin məzmunu ilə bağlı yenidən düşünmək, orada verilənlər əsasında yeni cizgilər axtarmaq, fikirlər söyləmək vəzifəsi ilə qarşılaşdırdı.

Suallara cavab verərkən şagirdlərin əksəriyyətinin nitqində oxşar ifadələr işləndi: hər ikisi balaca idi; kasıb və kimsəsizdilər; yetimdilər; zəhmətkeşdilər, həyatın bütün ağırlıqlarını çəkirlər, müharibənin dəhşətlərini görüblər, onlar müharibəyə, düşmənlərə nifrət edirlər; Mustafa ilə Züleyxa bir-birini çox sevirlər və s. ifadələr yazı taxtasına yazıldı. Sonra şagirdlərə bu ifadələri işlətməklə "Mustafa və Züleyxa obrazlarının oxşar cəhətlərini danışın" tələbi verildi.

Şagirdlər obrazların talelərini, həyat tərzlərini, hərəkətlərini tutuşdurmalı oldular. Onlara I-II və III siniflərdə ayrı-ayrı əşyaların, obrazların tutuşdurulması əsasında hekayə qurmaq üzrə məşq etdiklərindən IV sinifdə tapşırığı çətinlik çəkmədən icra etdilər.

Təcrübə göstərdi ki, III siniflərdə obrazlar arasındakı oxşarlıq əlamətlərinin müstəqil müəyyənləşdirilməsi və onların hər hansı kontekstdə işlədilməsi şagirdlərin şifahi nitqinin inkişafı baxımından çox faydalıdır. Bu məqsədlə Əli-Bayramlı şəhərindəki 11 nömrəli və Ucar rayonu Boyad kəndindəki orta məktəbin III a siniflərində şagirdlərə X.Hasilovanın "Qoca qadın hədiyyəsi" oxutduruldu. Hekayənin əsas məzmunu və ideyasının müəyyənləşdirilməsi, yazıçının məqsədi çətin sözlərin izahı və s. üzrə işlər aparıldı. Şagirdlərə evdə Elmarla Yaşarın oxşar cəhətlərini müəyyənləşdirib dəftərə köçürmələri tapşırıldı və növbəti dərsdə "Elmarla Yaşarın oxşar əlamətləri" mövzusunda şifahi inşa quracaqları çatdırıldı.

Şagirdlər oxşar əlamətləri ifadə edən söz və söz birləşmələrini evdə dəftərlərinə qeyd etdilər. Növbəti dərsdə şagirdlərlə kiçik müsahibə aparıldı, onların müəyyənləşdirdiyi ifadələr yazı taxtasına yazıldı: Eldar və Yaşar həmyaşıddırlar; bir-birinə çox oxşayırlar; başlarına qoyduqları arxaçınla bir-birindən fərqlənirlər; üçüncü sinifdə oxuyurlar; başqalarına kömək edəndirlər; sakitdirlər, diqqətlidirlər, dostdurlar, mehribandılar; böyüklərə hörmət edəndilər və s.

Bundan sonra şagirdlər yazı taxtasındakı söz və ifadələri işlətməklə qeyd olunan mövzuda şifahi inşa qurdular.

Ümumiyyətlə təcrübədə iştirak edən 59 şagirddən 51-i (86,4%) Vüqar və Etibarın oxşar əlamətlərini təsvir etdi. Onların hər birinin şifahi inşasında seçilən ifadələr, konstruksiyalar işləndi. Bu inşalar bir qədər həcmdə kiçik olsa da, müstəqil təfəkkürün məhsulu idi. Qurulan cümlələr qrammatik-semantik cəhətdən əsasən səlisdir. Cümlələr bir-biri ilə məntiqi əlaqəyə girmişdir.

6-sı (10,2%) obrazların müştərək cizgilərini tam verə bilməsə də, onların fəaliyyətini əsasən rabitəli şəkildə verdi. 2-si (3,4%) isə yalnız hekayənin məzmununu nağıl etdi.

Təcrübi təlim göstərdi ki, III-IV siniflərdə tətbiq olunan priyom Hekayənin dərindən və şüurlu mənimsənilməsini təmin etməklə, şagirdlərin idrak fəaliyyətini fəallaşdırır, ən başlıcası müqayisə xarakterli inşaların qurulmasına kömək göstərir.

Bundan sonra yuxarıda adları qeyd olunan beş məktəbin on IV sinfində 392 şagirdlə ekspe-

riment keçirildi. Bütün məktəblərin A sinifləri eksperimental, B sinifləri isə kontrol götürüldü. Həm eksperimental, həm də kontrol siniflərdə 60 şagird əHatə olundu (dörd yuxarı, dörd orta səviyyəli, dörd aşağı səviyyəli).

Eksperimentin əsasında belə bir fərziyyə qoyuldu: müxtəlif oxu materiallarında tutuşdurmalar əsasında oxşar əlamətlərin müəyyənləşdirilməsi və bu əsasda şifahi inşaların qurdurulması mümkündür və bu onların (şagirdlərin) nitqinin inkişafına müsbət təsir göstərə bilər.

Eksperiment materialı kimi şagirdlərə aşağıdakı tapşırıqlar verildi.

1. "Koroğlu" dastanındakı Koroğlu; "Qaçaq Nəbi" mətnində isə Nəbi obrazları arasındakı bənzərlik müəyyənləşdirildi və bu xüsusda şagirdlərə şifahi hekayələr qurduruldu.

2. Ə.Quliyevin "Babək" və Ə.İsayevin "Cavad xan cəngisi" hekayələri arasındakı oxşar cəhətlər müəyyənləşdirildi və bu əsasda şagirdlərə şifahi inşalar tərtib etdirildi.

3. Ə.Kərimin "Dənizdə şəhər" mətninin məzmunu ilə əlaqədar şəkil təqdim olundu, bunlar arasındakı oxşarlıq əlamətləri tapıldı və şagirdlərə bu haqdakı fikirləri rabitəli nağıl etdirildi.

Kontrol siniflərdə ənənəvi yolla iş aparıldı.

Eksperimental siniflərdə şagirdlər müstəqil fəaliyyət göstərdilər. Belə ki, sinifdə hekayələr oxunduqdan, onlar üzərində bədii təhlil aparıldıqdan sonra şagirdlərə Koroğlu ilə Qaçaq Nəbi obrazları, "Babək" və "Cavadxan cəngisi" hekayələrinin məzmunu, "Dənizdə şəhər" şerinin məzmunu ilə təsviri arasındakı oxşarlığı müəyyənləşdirmək üçün müsahibə təşkil edildi. Müsahibə obrazların, hadisələrin, məzmunla təsvirin arasındakı oxşar əlamətləri üzə çıxarmağa imkan verdiyindən şagirdlər obrazların hərəkətində, hadisələrin haradan və necə başlanmasından, necə inkişaf etməsindən və qurtarmasından bəhs etdilər. Şagirdlərin hər biri "Koroğlu və Qaçaq Nəbinin oxşarlığı nədədir?" "Babək" və "Cavadxan cəngisi" mətnlərinin məzmunundakı oxşarlıqlar hansılardır? "Dənizdə şəhər" mətn ilə onun təsviri arasındakı oxşarlıqlar nədən ibarətdir?" suallarına cavablar verməyə çalışdılar.

Eksperiment göstərir ki, eksperimentator tərəfindən irəli sürülən bu priyom tədris materiallarının məzmununun şüurlu mənimsənilməsini təlim etməklə, şagirdlərin nitqinin inkişafına da müsbət təsir göstərir.

Eksperimental siniflərə aşağıdakı çalışmalar təqdim olundu.

1. «Xocalı qırğınını unutmaq olmaz» mətninin məzmunu, məzmunla əlaqədar şəkillər təqdim olunaraq, onların oxşar cəhətlərinin müəyyənləşdirilməsi və nağıl olunması.

2. «Ayı ovu» hekayəsinin məzmunu və məzmunla bağlı şəkillər təqdim olunaraq, onların oxşar cəhətlərinin müəyyənləşdirilməsi və nağıl olunması.

3. «28 may azadlıq günüdür» mətninin məzmunu və həmin məzmunla bağlı şəkillərin təqdim olunaraq onların oxşar cəhətlərinin tapılması və danışdırılması.

Tapşırıqların hərəsi bir dərsdə icra olundu. Şagirdlərə materiallar oxutduruldu, onların məzmununun açılması üçün şəkillərə baxıldı. Məzmun və şəkillər əsasında sual-cavab aparıldı, şagirdlərin diqqəti əsas məsələlərə yönəldildi. Onlarda oxuduqlarını şəkillər əsasında danışmaq həvəsi yaradıldı.

Eksperimental siniflərin şagirdləri bir növ problem qarşısında qaldılar. Şagirdlər mətnlərin məzmununu öyrəndikdən sonra şəkillər üzərində müşahidə aparmalı olduqlarından təsvir edilən obraz-ları, obyektləri, baş verən hadisələrin ardıcıllığını, hekayələrdəki söz və ifadələrlə şəkildəki rənglər, onların doğurduğu çalarlar arasındakı fərqləri, yaxud oxşarlıqları tutuşdurdular.

Tutuşdurma şagirdləri geniş fikri əməliyyata təhrik etdiyindən onlar hazır qəliblərdən (söz və ifadələrdən, cümlələrdən, şablon manevrdən) qaçaraq necə düşünürlərsə, elə də danışdılar. Belə ki, eksperimental sinfin şagirdləri birinci tapşırıq üzrə yalnız Xocalıda baş verən qırğınları, adamların dağlara, meşələrə çəkilməsini, erməəni faşistlərinin rus atıcı alayı ilə birləşərək bəşəri cinayətlər törətməsini təfsilatı ilə danışdılar, onlar eyni zamanda şəkildə gördüklərini — günahsız uşaqların, qadınların, qocaların avtomat və pulemyotlarla Öldürülməsini, öldürüləndən sonra bir çoxlarının başlarının kəsilməsini, üzlərinin eybəcər vəziyyətə salınmasını, yandırılmasını və s. nağıllarına daxil etmişdilər.

Məzmunu əyaniləşən bu materiallar şagirdlərin hisslərinə toxunmuşdur, onları həyəcanlandırmışdır. Düşmənə qəzəblərini, nifrətlərini artırmışdır. Hekayənin məzmununu əlavə məlumatlarla zənginləşdiyindən şagirdlərin qurduqları inşalar da, xeyli dərəcədə məzmunlu,

dəqiq və anlaşıqlı olmuşdur. İnşalarda müstəqillik, yaradıcılıq təşəbbüskarlığı açıq-aydın görünürdü. Hər birində şagirdlərin hissləri, duyğuları aydın görünürdü. Doğrudur, inşalar qüsursuz da deyildir: yersiz ifadələr, məntiqsiz fikirlər, uzlaşmayan cümlələr də tək-tək özünü göstərirdi.

Kontrol siniflərdə də o qüsurlar mövcud idi. Bundan əlavə kontrol siniflərdə işlədilən cümlələrin əksəriyyəti dərslikdən götürülmüşdü. Onlar heç bir problemlə qarşılaşmadıqlarından yaradıcılıq hiss olunmurdu. İnşaların məzmununda yeknəsəqlik hiss olunurdu. Müstəqillik, sərbəstlik, yaradıcılıq təşəbbüsləri görünmürdü. Rəngarənglik yox idi. Faktlar, detallar, bəzən unudulurdu. Şagirdlərin münasibəti açılmırdı.

Eksperiment bir daha sübut etdi ki, eksperimental siniflərdə tətbiq olunan sistem şagirdlərin fəallığını əhəmiyyətli dərəcədə artırmış, şagirdlərin müstəqilliyinə, yaradıcılıq təşəbbüskarlığına müsbət təsir göstərmişdir. Ən başlıcası tədris materialının dərindən mənimsənilməsini təmin etməklə şagirdlərin şifahi nitqlərinin inkişafına da təkan vermişdir.

2004-2005-ci tədris ilinin sonunda eksperimentə cəlb olunan məktəblərin on III və on IV sinfində yoxlayıcı eksperiment qoyuldu. III siniflərdə 296, IV siniflərdə isə 302 şagird təhsil alırdı. Eksperiment materialı kimi aşağıdakı mövzularda şagirdlərə yazılı və şifahi hekayələr qurduruldu.

III sinifdə:

a) "Üç qardaş" Alman xalqı nağılındakı qardaşların oxşar əlamətlərinin tapılması və bu əsasda inşaların tərtibi.

b) M.Hüseynin "Fətəli xan" hekayəsində Fətəli xan və Tuti Bikə obrazları arasındakı oxşarlıq əlamətlərinin tapılması və bu əsasda şifahi inşaların tərtibi.

IV sinifdə:

a) Y.Şirvanın "Ananın səsi" ilə Ə.Quliyevin "Babək" hekayəsinin məzmunu arasındakı oxşarlığın müəyyənləşdirilməsi və bu əsasda şagirdlərin öz fikirlərini rabitəli nağıl etmələri.

b) H.Zeynalovun "Dənizdə keçən ömür" hekayəsindəki usta Saleh obrazı ilə E.Mahmudovun "Ay həkim" mətnindəki Alim obrazı arasındakı oxşarlığın tapılması və bu əsasda da inşaların qurdurulması.

Yoxlamanın nəticələri göstərdi ki, eksperimental siniflərdə tətbiq olunan sistem oxu materiallarının məzmununun dərindən və şüurlu mənimsənilməsini təmin etməklə şagirdlərdə axtarmaq, araşdırmaq, tutuşdurmaq bacarıqlarının formalaşdırılmasına, elmi dünyagörüşlərinin genişləndirilməsinə kömək göstərir, ən başlıcası, nitqlərinin inkişafına güclü təsir edir.

**Problemin aktuallığı**. Müqayisənin növlərindən biri kim itutuşdurmanın müxtəlifliyinin şagirdlərin müstəqillik dərəcəsindən asılılığını nəzərə alsaq, məqaləni aktual hesab etmək olar.

**Problemin** elmi yeniliyi. Məqalədə müxtəlif obrazların (əşyaların, hadisələrin) tutuşdurulmasının şifahi nitqin inkişafına təsiri məsələlərinə toxunulur, mövzu ilə bağlı görkəmli alimlərin araşdırmalarından söhbət açılır, müqayisə priyomu əsasında kiçikyaşlı məktəblilərin şifahi nitqinin vəziyyətini aşkara çıxarmaq məqsədilə respublikamızın ayrı-ayrı məktəblərində aparılan eksperimentlərin nəticələrinə istinad olunur.

**Problemin** praktik əhəmiyyəti və tətbiqi. Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. Rəhimov A.N. I sinifdə Azərbaycan dili dərslərində şagirdlərin monoloji nitqinin inkişafı üzrə işin sistemi: Ped.ü.fəls.dok. …dis. Bakı, 1985, 184 s.
2. Rəhimov A.N. I-IV siniflərdə rabitəli nitqin inkişafı. Bakı: Maarif, 1988.
3. Rəhimov A.N. İbtidai siniflərdə oxu təlimi. Bakı: Tərcüman, 1988, 71 s.
4. Əhmədov B.A. Ana dili dərslərində şagirdlərin nitqinin inkişaf yolları. Bakı: Maarif, 1967, 204 s.
5. Əhmədov B.A. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Bakı: Maarif, 1974, 57 s.
6. Ağayeva F. Şifahi nitqin sintaksisi. Bakı: Maarif, 1975, 208 s.
7. Əhmədov Ə.M. Şagirdlərin nitqindəki üslub səhvləri və onların aradan qaldırılması üzərində iş. Bakı: Maarif, 1975.

**E-mail:** sevinc rahimova@gmailşcom

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.elm.dok., prof.* **H.H. Əhmədov**

**Redaksiyaya daxil olub**: 01.10.2019